**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA NƏQLİYYAT-LOGİSTİKA FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Cəmilə Elçin qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Beynəlxalq ticarət və logistika" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Elnurə Bünyat qızı Məmmədova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Kamran Nurəddin oğlu Abdullayev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**İsmayıl Mahmud oğlu Xeyirxəbərov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Eldəniz Məzahir oğlu Məhərrəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Möhübbət Musa oğlu Hüseynov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir qlobal transformasiyalar şəraitində dünya iqtisadiyyatının ciddi problemlərindən biri, daha səmərəli nəqliyyat-logistika sisteminin formalaşdırılması və beynəlxalq nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artırılmasıdır. Bu istiqamətlərdə qlobal layihələr üzərində uzunmüddətli işlər aparılır, dövlətlər və ölkələr arasında razılaşmalar əldə olunur və beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika marşrutlarının reallaşdırılması istiqamətində səylər göstərilir.

Son illərdə regionda reallaşdırılan beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyətli hissəsi məhz Azərbaycan tərəfindən təşəbbüs göstərilməklə və əsas maliyyə donoru olmaqla həyata keçirilmişdir. Bunlara misal olaraq Bakı-Tbilisi-Qars Beynəlxalq dəmiryolu, İpək yolu və Transxəzər Orta Dəhliz marşrutunu göstərmək olar. Məhz bu cəlbedici və səmərəli beynəlxalq nəqliyyat marşrutları və onların əsasında formalaşdırılan logistika dəhlizləri beynəlxalq yükdaşımalar üçün xeyli səmərəlidir. Təsadüfi deyildir ki, bu istiqamətlərdə yük daşımalarının həcmi dinamik artım nümayiş etdirir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra "Neft strategiyası"nı reallaşdırmaqla, ölkəmizin beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşmasına nail oldu. Neft və qaz resurslarının dünya bazarlarına çıxarılması, xüsusilə maliyyə tutumlu Avropa bazarına ixrac edilməsi yeni reallıqlar yaratmışdır. Bu istiqamətlərdə istismara verilən neft və qaz kəmərləri Azərbaycanın beynəlxalq aləmdə imicini və rəqabət qabiliyyətini gücləndirmişdir. Dəmir yolu nəqliyyatı infrastrukturunun gücləndirilməsi məqsədilə xeyli işlər görülmüş, vaqon parkı yenilənmiş və sürətli qatarlardan ibarət marşrutlar açılmışdır. Beynəlxalq hava limanlarının sayı 9-a çatdırılmışdır və tezliklə Ələt qəsəbəsində - Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında yeni bir hava limanının tikintisi həyata keçiriləcəkdir. Təqdirəlayiq haldır ki, bu hava limanlarının 3-ü işğaldan azad olunmuş ərazilərdə - Füzuli, Zəngilan və Laçında istismara verilmişdir.

Azərbaycanda nəqliyyat sisteminin təkmilləşdirilməsi, nəqliyyat-logistika sisteminin gücləndirilməsi, bu sahədə olan problemlərin

aradan qaldırılması istiqamətində dövlət tərəfindən davamlı işlər aparılmış, qanunvericilik bazası formalaşdırılmış, ölkə qanunları qəbul edilmiş, həmçinin strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş və beynəlxalq kontekstdə ölkəmizin nəqliyyat-logistika sisteminin inteqrasiyasının intensivləşdirilməsi təmin olunmuşdur. Ölkə ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə sistemi" tətbiq olunmuşdur[1]. Bundan əlavə, qədim "İpək yolu"nun bərpası məqsədilə 1998-ci ildə qəbul olunmuş Beynəlxalq Bakı Konfransının qərarlarının yerinə yetirilməsi tədbirləri görülmüşdür[2]. Qanunvericilik baxımından isə 1999-cu ildə qəbul olunan "Nəqliyyat haqqında" qanunu göstərmək olar[3]. Digər mühüm sənədlərdən biri də Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2015-ci il tarixli Fərmanını qeyd etmək lazımdır[4].

Bunlarla yanaşı, qeyd edək ki, dövlət başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq olunmuşdur[5]. Bu mühüm sənəddə yer alan milli prioritetlərin əhəmiyyətli hissəsi yerinə yetirilməkdədir və xüsusilə qeyri-neftqaz sektorunun şaxələndirilməsi, qlobal çağırışlara uyğun şəkildə yaşıl iqtisadiyyatın quruculuğunun sürətləndirilməsi, həmçinin milli iqtisadiyyatın müxtəlif sahələrinin rəqabət

---

[1]Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli, 6 nömrəli qərarı ilə təsdiq edilmişdir.
[2]Tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Bakı Konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 26 oktyabr 1998-ci il.
[3]Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 11 iyun 1999-cu il 683-IQ.
[4]Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 655 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
[5]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

qabiliyyətinin artırılması hədəfləri müstəsna əhəmiyyət kəsb edir. Bu göstərilən hədəflərə çatmaq və vəzifələrin öhdəsindən gəlmək üçün ölkə Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq olunmuş 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası sürətlə icra edilməkdədir[6]. Eyni zamanda 2027-2030-cu illəri əhatə edəcək sosial-iqtisadi inkişaf Strategiyasının layihəsi hazırlanmaqdadır. Bu istiqamətlərdə ölkənin nəqliyyat logistika sisteminin səmərəli fəaliyyət göstərməsi müstəsna əhəmiyyət kəsb edir.

Qeyd olunan amillər nəzərə alınmaqla, dövlət tərəfindən ölkənin nəqliyyat sisteminin təkmilləşdirilməsi və rəqəmsal transformasiyalara keçidin təmin edilməsi üçün intensiv tədbirlər görülməkdədir. Ölkə Prezidentinin 15 yanvar 2025-ci il tarixli fərmanı ilə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi publik hüquqi şəxsin Nizamnaməsi təsdiq olunmuşdur[7]. Habelə ölkə Prezidentinin 16 yanvar 2025-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası təsdiq edilmişdir[8]. Daha bir mühüm sənəd – AR Prezidentinin 19 mart 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası təsdiq olunmuşdur[9]. Bu istiqamətlərdə aparılan işlər ölkəmizin nəqliyyat-logistika sisteminin daha səmərəli və çevik, çoxfunksiyalı mexanizmlərinin hazırlanmasına imkan verəcəkdir.

Məlumdur ki, ölkəmizdə müasir nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması və inkişaf etdirilməsi maksimum prioritetlik təşkil edir. Bu baxımdan nəqliyyat-logistika sisteminin

---

[6] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir, №3378.

[7] Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) publik hüquqi şəxsin Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.

[8] Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 16 yanvar 2025-ci il.

[9] Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

mövcud potensialından səmərəli və məhsuldar istifadə olunması istiqamətlərində kompleks və sistemli yanaşmanın olduğunu qeyd etmək mümkündür. Digər tərəfdən, yeni şəraitdə Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin qlobal çağırışlara uyğunlaşdırılması və bu sahədə fəaliyyətin artırılması tədbirlərinə, layihələrinə ehtiyac vardır. Bunlara nail olmaq üçün nəqliyyat-logistika problemlərinin araşdırılması, istismara verilmiş beynəlxalq marşrutların səmərəliliyinin yüksəldilməsi, həmçinin ölkə daxilində nəqliyyat logistika fəaliyyətinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərində fundamental elmi-tədqiqatların aparılmasına zərurət yaranmışdır. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını ifadə edir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək olar ki, qlobal çağırışlar şəraitində nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik problemlərinin öyrənilməsi, nəqliyyat xərclərinin azaldılması, nəqliyyat marşrutlarının optimallaşdırılması nəqliyyat-logistika qovşaqlarının imkanlarından məhsuldar istifadə olunması, maksimum rəqabət qabiliyyətli nəqliyyat-logistika fəaliyyətinin təmin olunması problemləri üzrə fundamental elmi əsərlər diqqət çəkir. Azərbaycanlı alimlərdən akademik Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, Ş.T.Əliyev, T.İ.İmanov A.M.Əsədov, K.N.Abdullayev, A.M.Həmidova, İ.R.Rəcəbli, A.R.Rzayev, T.A.Yadigarov, E.B.Məmmədova və başqaları qeyd olunan istiqamətlər üzrə tədqiqatlar aparmışlar. Bunlarla yanaşı, bir qrup xarici ölkə alimləri: M.E.Porter, A.E.Linqu, İ.Karayun, H.Aydin, M.Gulmez, A.Erdem, G.A.Özpay, A.S.Zimin, T.P.Titov, V.A.Kramkov, K.S.Krivyakin, İ.N.Lavrikov, N.V.Penşin, S.V.Lyuxanova, Q.V.Savin, N.V.Litovka və başqlarının elmi əsərlərində nəqliyyat-logistika fəaliyyətinin nəzəri-metodoloji əsaslarına baxılmış, nəqliyyat-logistika sisteminin səmərəli fəaliyyət göstərməsi istiqamətlərində tədqiqatlar aparılmışdır.

Bunlarla bərabər, bizə görə son illərdə dünya iqtisadiyyatında baş verən transformasiyalar, beynəlxalq səviyyədə nəqliyyat-logistika qovşaqlarının və marşrutlarının sabit və səmərəli işlənməsində yaranmış problemlər, iqtisadi sanksiyalar və müharibələr səbəbindən nəqliyyat marşrutlarının fəaliyyətində olan çətinliklər, daşımalara

sərf olunan xərclər baxımından daha optimal fəaliyyət mexanizmlərinin və yanaşmaların ortaya qoyulmasını şərtləndirir. Buna görə də qeyd olunan istiqamətlər üzrə əlavə araşdırmaların aparılması və müasir reallıqlar əsas götürülməklə nəqliyyat-logistika fəaliyyətinin daha səmərəli mexanizmlər əsasında inkişaf etdirilməsi üzrə elmi nəticələrin əldə edilməsinə və təkliflərin hazırlanmasına ehtiyac vardır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanda nəqliyyat-logistika fəaliyyətini təmin edən strukturlar, qurumlar və subyektlər, həmçinin nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması proseslərinə xidmət göstərən istehsal və təmir müəssisələridir.

Tədqiqatın predmetini isə müasir qlobal transformasiyalar və yeni çağırışlar şəraitində Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik problemlərinin araşdırılması və həlli istiqamətlərinin tədqiqi, eyni zamanda bu araşdırmalara cəlb olunan elmi-praktiki yanaşmalar, prinsiplər, metodlar və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi dünya səviyyəsində iqtisadi proseslərin çətinləşdiyi və xüsusilə nəqliyyat-logistika sistemində problemlərin artdığı bir dövrdə Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik problemlərinin fundamental şəkildə tədqiq olunması və onun daha münasib, optimal həlli istiqamətlərinin müəyyənləşdirilməsidir.

Bu məqsədə çatmaq üçün tədqiqatın gedişində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- ilk növbədə nəqliyyat-logistika fəaliyyətinin konseptual əsaslarının öyrənilməsi və müasir nəzəri baxışların formalaşdırılması;
- nəqliyyat-logistika fəaliyyətinin mövcud problemlərindən yanaşmaqla, daha üstün metodoloji üslubların müəyyənləşdirilməsi;
- ölkəmizdə nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə bu sahədə olan beynəlxalq təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi;
- Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin müasir vəziyyətinin təhlil olunması;

- ölkəmizdə nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik səviyyəsinin qiymətləndirilməsinin aparılması;
- nəqliyyat-logistika sisteminin potensialından daha səmərəli istifadə olunması imkanlarının araşdırılması;
- işğaldan azad olunmuş ərazilərdə nəqliyyat-logistika infrastrukturunun yaradılması perspektivlərinin araşdırılması;
- Azərbaycanda nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi məsələlərinin tədqiq edilməsi;
- Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizinin regional və beynəlxalq əhəmiyyətinin araşdırılması;
- yeni çağrışlar nəzərə alınmaqla, ölkəmizdə nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat prosesində məlum elmi metodlardan, ilk növbədə elmi abstraksiya, analiz, sintez, müqayisə, statistik təhlil və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bunlarla bərabər, nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılmasına təsir edə biləcək mexanizmlərin hazırlanmasını özündə ehtiva edən iqtisadi konsepsiyalar və strategiyalar, nəzəri-metodoloji və praktiki yanaşmalar diqqət mərkzəində saxlanılmışdır. Eyni zamanda, qeyd olunan problemlər üzrə müxtəlif ölkə və xarici alimlərin elmi əsərlərinə istinadlar edilmişdir. Həmçinin nəqliyyat-logistika fəaliyyətinin daha səmərəli təşkili üzrə dövlət siyasətinin tərkib elementləri, qanunvericilik aktları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, mövzuya aid digər məzmunlu analitik materiallardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Qlobal transformasiyalar şəraitində ölkəmizin nəqliyyat-logistika sisteminin fəaliyyətinin konsepstual əsaslarına, mövcud mexanizmlərinə yeni elmi-təcrübi yanaşmalar tələb olunur və adekvat səmərəli tədbirlərin görülməsi zərurəti ön plana çıxıb.
2. Beynəlxalq səviyyədə nəqliyyat-logistika fəaliyyətinin səmərəli təşkili və bu sahənin sabit inkişaf etdirilməsi təcrübəsinin öyrənilməsi və ölkənin nəqliyyat-logistika sistemində tətbiq edilməsi faydalı ola bilər.

3. Azərbaycanda iqtisadi inkişaf modelinin prioritetləri və hədəfləri əsas götürülməklə, nəqliyyat-logistika sisteminin mövcud potensialından maksimum səmərəli istifadənin genişləndirilməsi tədbirlərinin görülməsinə ehtiyac vardır.

4. Azərbaycanda nəqliyyat-logistika sisteminin daha səmərəli fəaliyyət göstərilməsi üçün onun hazırda istifadə olunan təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsinə zərurət yaranmışdır.

5. Beynəlxalq nəqliyyat marşrutlarının cəlbediciliyi baxımından açılması nəzərdə tutulan Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizinin üstünlükləri regional və beynəlxalq səviyyədə yükdaşımalara təsirinin müəyyənləşdirilməsi tələb olunur.

6. Yeni çağırışlar kontekstində Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi və daha dərin elmi arqumentlərlə əsaslandırılması gərəkdir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardır:**

- qlobal çağırışlar kontekstində Azərbaycanda nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması, inkişaf etdirilməsi və ümumilikdə nəqliyyat-logistika sisteminin səmərəliliyinin yüksəldilməsi üçün mühüm tədbirlər kompleksi hazırlanmış və bu sistemin əsas problemlərinin həlli yolları müəyyənləşdirilmişdir;
- nəqliyyat-logistika sahəsində fəaliyyət göstərən müəssisələr üçün risklərin idarə edilməsi mexanizminin hazırlanması və reallaşdırılması mərhələlərinin alqoritm-sxemi və nəqliyyat-logistika fəaliyyətinin səmərəli təşkili üzrə metodoloji prinsiplər işlənib hazırlanmışdır;
- nəqliyyat-logistika infrastrukturu baxımından rəqabət üstünlüklərinin mühüm aspektləri müəyyənləşdirilmiş və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunda iri nəqliyyat-logistika mərkəzlərinin formalaşması üçün mühüm zəruri ilkin şərtlər əsaslandırılmışdır;
- işğaldan azad edilmiş ərazilərdə dövlət proqramlarının hədəflərinə uyğun olaraq nəqliyyat-logistika infrastrukturunun yaradılması və inkişaf etdirilməsinin strateji və prioritet istiqamətləri müəyyənləşdirilmiş və onların vacibliyi əsaslandırılmışdır;

- Azərbaycanın nəqliyyat-logistika fəaliyyətinin rəqəmsal məkanını formalaşdıran perspektivli istiqamətlər müəyyənləşdirilmiş və bu fəaliyyətin səmərəliliyinin artırılmasında informasiya təminatının artan rolunun blok-sxemi işlənilmişdir;
- yeni reallıqlar və çağırışlar nəzərə alınmaqla, Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması üzrə 2026-2030-cu illər üçün Fəaliyyət Strategiyasının hazırlanması və təsdiq edilməsi təklif olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri-praktiki əhəmiyyəti baxımından bir qrup məsələlər diqqətdə saxlanılmışdır. Nəqliyyat-logistika fəaliyyətinin daha səmərəli təşkil edilməsi tədbirlərinin görülməsində, bununla bağlı strategiya və konsepsiyaların hazırlanmasında tədqiqatın nəticələrindən, irəli sürülmüş təkliflərdən istifadə edilməsi perspektivləri vardır. Bunlarla bərabər, Azərbaycanda nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi nöqteyi-nəzərindən işdə verilmiş mexanizmlər və prinsiplərdən səmərəli şəkildə istifadəsi mümkündür. Eyni zamanda, müasir çağırışlar nəzərə alınmaqla, nəqliyyat-logistika fəaliyyətinin yeni tələblərə uyğunlaşdırılmasında, xərclərin optimallaşdırılmasında, həmçinin dərs vəsaitlərinin və dərsliklərin yazılmasında bu tədqiqat işində verilmiş materiallardan bəhrələnmək olar.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın mövzusu Azərbaycan Kooperasiya Universitetinin elmi-tədqiqat işlərinin ümumi istiqamətlərinə uyğun olaraq seçilmişdir.

Dissertasiya işinin mövzusu ilə əlaqədar olaraq iddiaçının 11 elmi əsəri, o cümlədən 6 məqalə və 5 tezisi (onlardan 1 məqalə və 3 tezisi xaricdə) Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc edilmişdir. Dissertasiya işinin əsas elmi nəticələri "Nəqliyyat-logistika fəaliyyətindəki problemlərin həlli üzrə nəzəri-metodoloji yanaşmalar" (Bakı, 2023), "Nəqliyyat-logistikanın inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübə" (Bakı, 2024), "Azərbaycanda nəqliyyat-logistika sisteminin potensialından səmərəli istifadə edilməsi məsələləri" (Bakı, 2024), "Nəqliyyat-logistikanın təşkilati-iqtisadi

mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi" (Bakı, 2025), "Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi istiqamətləri" (Bakı, 2025) və "Оценка уровня эффективности транспортно-логистической деятельности" (Москва, 2025) adlı məqalələrdə dərc olunmuşdur.

Eyni zamanda, tədqiqat işinin bir sıra əsas müddəaları beynəlxalq və respublika səviyyəli konfrans materiallarında dərc olunmuş "Укрепление транспортной и логистической деятельности в постконфликтных территориях в Азербайджане" (Москва, 2025), "Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi problemləri" (Sumqayıt, 2025), "Postkonflikt ərazilərdə sənaye müəssisələrinin dayanıqlı inkişafında nəqliyyat-logistika infrastrukturunun rolu" (Bakı, 2025) adlı tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Giriş (16535 işarə), I fəsil (73304 işarə), II fəsil (48455 işarə), III fəsil (72319 işarə), nəticə (10573 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (24033 işarə) üzrə ümumi həcm 266310 işarədir. Cədvəllər, şəkillər, qrafiklər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla dissertasiyanın işarə sayı 221186-dır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Girişində** mövzunun aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi əks olunmuş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, əsas müddəalar və elmi yeniliklər verilmişdir.

Dissertasiyanın **"Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin nəzəri və metodoloji əsasları"** adlı birinci fəslində nəqliyyat-logistika fəaliyyətinin konseptual əsasları və bu sahədəki problemlərin həllinə nəzəri baxışlar öyrənilmiş və ümumiləşdirilmiş, müasir dövrdə nəqliyyat-logistika fəaliyyətindəki problemlərin

həlliinə dair metodoloji xüsusiyyətlər müəyyənləşdirilmiş, həmçinin nəqliyyat-logistika fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üzrə dünya ölkələrinin təcrübəsi verilmişdir.

Dünyada nəqliyyat-logistika sistemlərinin inkişaf etdirilməsində mütərəqqi təcrübə toplanmışdır və yeni metodologiyalar işlənmişdir. Bu baxımdan qeyd edə bilərik ki, həm daşımaların optimallaşdırılmasında müxtəlif nəqliyyat növləri üzrə kombinə edilmiş nəqliyyat daşımaları konsepsiyalarının işlənilməsində və məsrəflərin azaldılmasında demək olar ki, nisbətən səmərəli fəaliyyət mexanizmləri müəyyənləşdirilmişdir. Ümumilikdə nəqliyyatın iqtisadiyyatın inkişafında rolu böyükdür və funksiyaları genişdir. Akademik Z.Ə.Səmədzadə yazır: "İqtisadiyyat böyük və mürəkkəb bir sistemdir. Bu sistemin normal fəaliyyəti təbii ki, sistemə daxil olan alt sistemlərin fəaliyyətindən asılıdır ki, onlardan biri də nəqliyyat hesab edilir. Ötən yüzillikdə dinamik inkişaf edən sahələrdən biri nəqliyyat olmuşdur. Bu dövrdə, cəsarətlə demək olar ki, nəqliyyat sektoru öz inkişaf sürətinə, miqyasına görə əsrlərə bərabər yol keçmiş, mühüm infrastruktur sahəsi kimi formalaşmışdır"[10]. Bu fikirlərlə həmrəy olmaqla bərabər, əlavə edək ki, müasir dövrdə nəqliyyatın rolu daha da genişlənmişdir və nəqliyyat-logistika sistemi iqtisadiyyatın əsas strateji fəaliyyət növlərindən biri kimi qiymətləndirilir. Başqa sözlə, iqtisadi subyektlərin fəaliyyətlərinin nəticələrində nəqliyyat-logistikanın optimal təşkili, daşımalara çəkilən xərclərin azaldılması və sonda məhsulların (xidmətlərin) proqnozlaşdırılmış rentabellik səviyyəsinin təmin olunması mühüm şərtlərdəndir. Professor E.A.Quliyev qeyd edir: "Azərbaycanın davamlı inkişafının manevrliyinin yüksəldilməsində Zəngəzur nəqliyyat-logistika dəhlizinin əhəmiyyəti kifayət qədər böyükdür... Avropa ilə Asiya arasında ticarət axınlarının, mal mübadiləsinin genişləndirilməsində və resursların hərəkətində olan intensivliyin yüksəldilməsində əhəmiyyətli rol oynaya biləcək bir nəqliyyat-logistika marşrutudur"[11]. Biz də hesab edirik ki, Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizi

[10]Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə. III cild, – Bakı: Letterpress, – 2021. – s. 402.

[11]Quliyev, E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. – Bakı: Kooperasiya nəşriyyatı, – 2023. – s. 240.

Azərbaycanın regionda və dünyada mövqeyini, rəqabət qabiliyyətini əhəmiyyətli səviyyədə artıracaqdır. Əməkdar elm xadimi, professor B.X.Ataşov və bir qrup tədqiqatçılar hesab edirlər ki, "nəqliyyat müəssisələri öz təsərrüfat fəaliyyətlərini dövlət tənzimlənməsi və bazar münasibətlərinin əlaqələndirilməsi prinsipi üzərində qururlar. Nəqliyyatda realizə edilən hazır məhsul elə bilavasitə nəqliyyat prosesinin özüdür[12]. Buna görə də nəqliyyatın iqtisadiyyatda verə biləcəyi əlavə töhfələr, o cümlədən əlavə dəyər və maliyyə mənbələri müstəsna əhəmiyyət kəsb edir.

Hazırkı dövrdə nəqliyyat-logistika fəaliyyətinin maksimum səmərəli mexanizmlər əsasında təşkilində yüksək və "ağıllı" texnologiyalar mühüm önəm kəsb edir. Belə bir şəraitdə yüksək texnologiyalara əsaslanan nəqliyyat-logistik mərkəzlərin formalaşdırılması böyük nəticələr verə bilər. *"Nəqliyyat milli iqtisadiyyatın və ictimai istehsalın müstəqil sahəsi olub sərnişinlərin və logistik yüklərin daşınmasını həyata keçirir... Məhsulların logistik dövrənin ayrı-ayrı mərhələlərinə ötürülməsi, yəni istehsal prosesinin ahəngdar təşkili, tədavül kanallarından logistik yük vahidlərinin tez ötüb keçməsi, istehsal və əmtəəlik ehtiyatların tələb olunan səviyyədə saxlanılması nəqliyyat logistikası ilə sıx bağlıdır*"[13]. Bunlarla razılaşaraq hesab edirik ki, nəqliyyat-logistika sistemi milli iqtisadiyyatın inkişafında, resurslardan səmərəli istifadə edilməsində, iqtisadi subyektlərin və müəssisələr şəbəkəsinin fəaliyyətində önəmli funksiyaları yerinə yetirir.

Bunlarla bərabər, müasir dövrdə nəqliyyat-logistika fəaliyyəti sahəsində əsas problemlərin bir qrupunu və onların mahiyyətini açıqlamışıq (cədvəl 1).

---

[12]Ataşov, B.X., Novruzov, N.A., İbrahimov, E.Ə. Müəssisələrin maliyyəsi. – Bakı: Kooperasiya nəşriyyatı, – 2009. –s.282.

[13]İmanov, T.İ. Logistikanın əsasları. II hissə-Bakı: Təhsil NPM, – 2005. – s. 339-340.

**Cədvəl 1**

**Müasir dövrdə nəzəri baxımdan nəqliyyat-logistika fəaliyyəti sahəsində əsas problemlərin bir qrupu və onların xüsusiyyətləri**

| s/s | Nəqliyyat-logistika fəaliyyəti sahəsində əsas problemlər | Əsas problemlərin xüsusiyyətləri |
|---|---|---|
| 01. | Nəqliyyat-logistika fəaliyyətinin əsas məntəqəsinin müəyyənləşdirilməsi | – Bu mərhələdə məntəqələrin imkanları və tutumu müəyyən edilir.<br>– Nöqtələr arasındakı məsafədən asılı olaraq ilkin marşrut layihələndirilir və salınır.<br>– Bu zaman marşrutun seçilmiş hissəsinin xüsusiyyətləri nəzərə alınır, bunun əsasında ən uyğun nəqliyyat növü seçilir. |
| 02. | Kommersiya yüklərinin xüsusiyyətlərinin təhlili | – Daşınan yükün texniki və istismar xüsusiyyətləri ətraflı təhlil edildikdən sonra uyğun nəqliyyat seçilir, ən əlverişli daşıma marşrutu yaradılır |
| 03. | Uyğun nəqliyyatın seçilməsi | – Bazar mühitində rəqabət qabiliyyətli nəqliyyat növünün seçilməsi və müvafiq infrastrukturun qurulması, sərfəli marşrutların müəyyənləşdirilməsi və həmin marşrutlar üzrə prinsipial olaraq daha çox adekvat olan nəqliyyatın müəyyənləşdirilməsi |
| 04. | Optimal marşrutun qurulması | – Nəqliyyat sistemlərinin logistikasına əmtəə yüklərinin çatdırılması üçün optimal marşrutun qurulması daxildir ki, bu marşrut üzrə daşıma müqavilədə müəyyən edilmiş qısa müddətdə həyata keçiriləcək. Bu halda, əməkdaşlığın ilkin mərhələsində müştəri ilə razılaşdırılmış tələb olunan çatdırılma sürəti nəzərə alınmalıdır |
| 05. | Daşıma zamanı yükə nəzarət | – Müəyyən edilmiş vaxt çərçivəsində yükləri qarşılamaq üçün, onların hərəkətini, real vaxt rejimində diqqətlə izləmək və lazım olduqda, marşrutda bəzi düzəlişlər etmək lazımdır |
| 06. | Ölkənin nəqliyyat-logistika sisteminin beynəlxalq standartlar səviyyəsində inkişaf etdirilməsi | – Milli nəqliyyat-logistika sisteminin beynəlxalq nəqliyyat-logistika sistemləri və digər dövlətlərin milli nəqliyyat-logistika sistemləri ilə uyğunlaşdırılması və inteqrasiyasının intensivləşdirilməsi və s. |

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Məlumdur ki, nəqliyyat-logistika xidmətlərindən istifadənin təmin olunması və təşkili proseslərində əsaslı kapital qoyuluşları lazım gəlir, yollar, yolayırıcıları, körpülər, keçidlər, digər infrastruktur obyektləri və xüsusilə iri nəqliyyat qovşaqları tikilir. Bütün bunlar davamlı şəkildə əsaslı kapital qoyuluşunu şərtləndirir. Nəqliyyat-logistika fəaliyyətində risklərin idarə edilməsi mexanizminin formalaşdırılması aşağıdakı prinsiplərə əsaslanır ki, bu da həmin prosedurun müsbət nəticələrinə çatmağa imkan yaradır: risklərə qarşı müvafiq idarəetmə tədbirlərinin reallaşdırılması; riskin başqa subyektlərə ötürülə bilmə ehtimalının nəzərə alınması; *"risklərin idarə olunmasında tətbiq olunan maliyyə strategiyalarının nəzərə alınması və risklərin idarə olunması prosesində zaman amilinin nəzərə alınması"*[14]. Əlavə edək ki, nəqliyyat-logistika fəaliyyətində risklərin idarə olunması mexanizminin formalaşdırılmasına əsaslanan yuxarıdakı prinsiplərə əməl edilməsi xarici iqtisadi mühitdən qaynaqlanan risklərin müəssisənin təsərrüfat fəaliyyətinə mənfi təsirinin minimuma endirilməsi, nəqliyyat-logistika şirkətinin iqtisadi təhlükəsizliyinin qorunub saxlanması, müəssisənin maliyyə və təsərrüfat göstəricilərinin yaxşılaşdırılması kimi məqsədlərə nail olunmasına imkan yaradır.

Sxem 1-də nəqliyyat-logistika sahəsində fəaliyyət göstərən müəssisələr üçün risklərin idarə edilməsi mexanizminin metodoloji baxımdan hazırlanması və reallaşdırılması mərhələlərinin alqoritm-sxemini vermişik.

Qeyd edək ki, nəqliyyat-logistika fəaliyyətindəki problemlərin həlli proseslər toplusunun avtomatlaşdırılması səviyyəsindən xeyli dərəcədə asılıdır. Həmin fəaliyyət sahəsindəki proseslərin avtomatlaşdırılması səmərəliliyi artıra və şirkətin əməliyyatlarının ümumi keyfiyyətini yaxşılaşdıra bilər.

---

[14]Борисов, А.А. Методология управления рисками в транспортно-логистической компании / А.А. Борисов // Энигма. – 2021. № 30, – с. 25.




**Sxem 1. Nəqliyyat-logistika sahəsində fəaliyyət göstərən müəssisələr üçün risklərin idarə edilməsi mexanizminin metodoloji baxımdan hazırlanması və reallaşdırılması mərhələlərinin alqoritm-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Sxem 2-də nəqliyyat-logistika fəaliyyətinin səmərəli təşkili üzrə metodoloji prinsiplər sxematik olaraq verilmişdir.

Qeyd edək ki, dünya ölkələri içərisində nəqliyyat-logistika sisteminin ən güclü inkişaf etdiyi dövlətlər sırasında - ABŞ, Yaponiya, Almaniya və s. bu kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələri göstərmək olar. ABŞ-da nəqliyyat sisteminin bütün formaları




**Sxem 2. Nəqliyyat-logistika fəaliyyətinin səmərəli təşkili üzrə metodoloji prinsiplər**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

güclü şəkildə inkişaf etmişdir və burada əsas məqsəd daşımaların ən yüksək səviyyədə təmin edilməsi və son ünvana çatdırılmasının mükəmməl mexanizmlərə və alətlərə söykənməsindən ibarətdir. Avropa İttifaqının nəqliyyat-logistika fəaliyyətində yeni

texnologiyaların tətbiqi, müasir daşıma və saxlama avadanlığının yaradılması, yeni avtomatlaşdırılmış logistika mərkəzlərinin tikintisi vasitəsilə innovasiyalara böyük önəm verilir. Azərbaycanla strateji əməkdaşlıq əlaqələri olan İtaliyada nəqliyyat-logistika mərkəzlərinin yaradılması proseslərində dəniz limanlarına daha çox üstünlük verilir və yanaşma ölkədə əlverişli dəniz limanlarının olması ilə bilavasitə bağlıdır. Belə bir logistika mərkəzi ölkədə 1971-ci ildə təşkil olunmuşdur və səmərəli fəaliyyət göstərir. Əlavə edək ki, bu logistik mərkəzin – Boloniya Logistika Mərkəzinin –fəaliyyəti kifayət qədər çoxşaxəlidir. Belə ki, İtaliyada ölkədaxili yük daşımalarının 35 %-i bu mərkəzin payına düşür və ölkə ərazisindən keçən beynəlxalq yük daşımaların 16%-i yenə bu mərkəzin fəaliyyəti ilə bağlıdır. Son 20-25 il ərzində Çində nəqliyyat-logistika sisteminin inkişafına maksimum prioritetlik təmin edilmişdir. "Çinin nəqliyyat-logistika sisteminin formalaşmasının müasir mərhələsi 2004-cü ildə başlayıb"[15]. Bunlarla yanaşı, Çinin dünyanın əksər ölkələri ilə fəal şəkildə və geniş həcmdə ticarət-iqtisadi əlaqələri, idxal-ixrac əməliyyatları nəqliyyat-logistika sisteminin inkişafı üçün əsas postulatlar sırasındadır. Artıq Azərbaycanla Çin arasında yüksək səviyyədə imzalanmış sənədlərdə nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi prioritet istiqamətlər kimi razılaşdırılmışdır.

Dissertasiya işinin **"Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin mövcud durumunun təhlili və qiymətləndirilməsi"** adlı ikinci fəslində Azərbaycanda nəqliyyat-logistika sisteminin mövcud vəziyyəti təhlil olunmuş, nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik səviyyəsi qiymətləndirilmiş və ölkəmizdə nəqliyyat-logistika sisteminin potensialından istifadənin genişləndirilməsi imkanları araşdırılmışdır.

Müasir dövrdə nəqliyyat-logistika şirkətlərində vacib məlumatları toplamaq və uyğun nəqliyyat növünə tələbatı mümkün qədər aydın və dəqiq hesablamaq üçün xüsusi proqramlardan istifadə edilir. Aydındır ki, nəqliyyat-logistika xidmətlərinə tələbat daim artır və bu

[15]Лысоченко, А.А. Организационные основания формирования транспортно-логистической системы Китая / А.А.Лысоченко, С.Ван // Вестник Института дружбы народов Кавказа (Теория экономики и управления народным хозяйством). Экономические науки. – 2023. № 3(67), – с. 77.

tip bazar tələbatlarını ödəmək üçün kompleks və sistemli təhlillərə ehtiyac vardır. Biz də tədqiqatımızın predmetinə uyğun olaraq, ölkəmizdə nəqliyyat-logistika fəaliyyətinin mövcud vəziyyətinin təhlilinə çalışmışıq.

Cədvəl 2-dən göründüyü kimi, 2010-2024-cü illərdə nəqliyyat sferasında əlavə dəyər 3,72 dəfə artmış və 2024-cü ildə 8823 milyon manat təşkil etmişdir. Ümumi mənfəət isə həmin dövrdə 3,5 dəfə artmış və 7 milyard manata yaxın olmuşdur. Xalis mənfəət baxılan dövr ərzində 3,3 dəfə yüksəlmiş və 2024-cü ildə 5,3 milyard manata yaxın təşkil etmişdir. Nəqliyyat sferasında əsas kapitala investisiyalar isə 2010-2024-cü illərdə 2,4 dəfə artmış və 5,9 milyard manata yaxın olmuşdur.

Qrafik 1-də Azərbaycan Respublikasında nəqliyyat sektorunda yük daşımaların dinamikası əks olunmuşdur. Qrafikdən göründüyü kimi 2010-2024-cü illərdə ölkə üzrə nəqliyyat sektorunda yük daşımaların həcmi 196 milyon tondan 239 milyon tona yaxın artmışdır. Yük daşımalarının 60 %-ə qədəri avtomobil nəqliyyatının payına düşür və hesab edirik ki, bu əhəmiyyətli artımda ölkəmizin yeni nəqliyyat dəhlizlərinin formalaşdırılmasının və tranzit potensialının artırılmasında gördüyü sistemli tədbirlərin ciddi təsiri olmuşdur. Boru kəmərləri vasitəsilə daşınan yüklərin həcmi 2024-cü ildə 67,8 milyon ton həcmində qeydə alınmışdır. Bunun 38,8 milyonu neft kəmərlərinin və 29 milyonu isə qaz kəmərlərinin payına düşür.

2010-2022-ci illərdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşınmalarının həcmi 51,7 milyon tondan 51,4 milyon tona qədər azalmışdır. Həmin dövr ərzində tranzit yük daşınmalarının həcmi isə 16 milyon tondan 13,6 milyon tona qədər azalmışdır. 2023-2024-cü illər ərzində Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizləri üzrə artımlar qeydə alınmışdır. Avropa-Qafqaz-Asiya nəqliyyat və tranzit yük daşımaları üzrə azalmalar olmuşdur. Daha çox gəlir Şərq-Qərb nəqliyyat dəhlizi üzrə əldə edilmişdir – 324,4 milyon manat. Dəmir yolu ilə yük daşınmasından əldə olunan gəlirin məbləği 362 milyon manat təşkil etmişdir.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında nəqliyyat sferası üzrə əsas makro göstəricilər (2010-2024-cü illər)**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əlavə dəyər (cari qiymətlərlə), milyon manat | 2.369 | 2.659 | 2.694 | 2.569 | 2.656 | 3.242 | 4.076 | 4.719 | 4.928 | 4.867 | 5.175 | 6.390 | 8.122 | 7.827 | 8 823 |
| Ümumi mənfəət (cari qiymətlərlə), milyon manat | 1.961 | 2.238 | 2.156 | 1.903 | 1.963 | 2.523 | 3.281 | 3.860 | 3.959 | 3.789 | 3.814 | 4.891 | 6.520 | 6.134 | 6 895 |
| Xalis mənfəət (cari qiymətlərlə), milyon manat | 1.576 | 1.813 | 1.724 | 1.466 | 1.386 | 1.860 | 2.162 | 2.935 | 3.137 | 3.055 | 2.534 | 4.054 | 5.136 | 4.528 | 5 264 |
| Məşğul olanların sayı, min nəfər | 112,2 | 113,4 | 117,3 | 122,3 | 120,2 | 127,3 | 123,8 | 126,1 | 126,8 | 130,8 | 143,6 | 147,0 | 151,4 | 155,8 | 168,8 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 395 | 447 | 512 | 536 | 530 | 576 | 649 | 734 | 807 | 856 | 886 | 953 | 1.124 | 1.279 | 1 395 |
| Əsas fondlar (ilin sonuna), milyon manat | 5.700 | 6.581 | 8.156 | 8.958 | 9.124 | 10.301 | 11.582 | 12.404 | 15.175 | 15.696 | 15.705 | 17.261 | 18.942 | 21245 | 22229 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2.435 | 2.509 | 2.610 | 3.560 | 2.432 | 2.195 | 1.391 | 1.774 | 1.923 | 2.189 | 2.092 | 2.857 | 4.613 | 5.417 | 5.863 |

*Mənbə: Cədvəl AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib (https://www.stat.gov.az/source/transport/).*




**Qrafik 1. Azərbaycan Respublikasında nəqliyyat sektorunda yük daşımalarının strukturu və həcmi, min ton, 2010-2024-cü illər.**

*Mənbə:* https://www.stat.gov.az/source/transport/ *müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 3-də ölkəmizdə fəaliyyət göstərən bir qrup nəqliyyat-logistika şirkətlərinin göstərdikləri xidmətlərin qısa məzmununu ifadə etməyə çalışmışıq.

**Cədvəl 3**

## Azərbaycanda özəl nəqliyyat-logistika şirkətləri və onların fəaliyyət istiqamətlərinin qısa xarakteristikası

| S/S | Nəqliyyat-logistika şirkətləri | Fəaliyyət istiqamətləri |
|---|---|---|
| **1.** | Total Expres | - Kompleks nəqliyyat-logistika xidmətləri təklif edir.<br>- Dünyanın bir çox ölkələrinə yük daşımaları reallaşdırır.<br>- Anbar xidməti və yüklərin izlənməsi üzrə xidmətlər göstərir. |
| **2.** | Fresh logıstıcs | - Bu şirkət əsasən yüklərin daşınması üzrə, xüsusilə kənd təsərrüfatı məhsulları, elektronika və dərman preparatları daşımaq üzrə ixtisaslaşmışdır. |
| **3.** | AZ Logistika and Management Services | - Azərbaycanda və xarici ölkələrdə geniş spekterdə nəqliyyat-logistika xidmətləri göstərir.<br>- Neft və neft məhsulları, həmçinin təhlükəli və təhlükəsiz tullantıların daşınmasını təşkil edir. |
| **4.** | Albayrak Group | - Bakı limanında gübrə terminalında fəaliyyət göstərir və mərkəzi Asiya ölkələrindən gübrə məhsullarının ixracında tranzit məntəqə rolunu yerini yetirir.<br>- Saatda 600 ton və ümumilikdə anbarlaşdırmaqdan ötrü 60 min ton yük daşıma infrastrukturu vardır. |
| **5.** | Qaya Nəqliyyat | - Ölkə üzrə və beynəlxalq səviyyədə yük daşımaları həyata keçirir.<br>- əsasən ərzaq məhsullarının daşınması istiqamətində ixtisaslaşıb və Azərbaycanın ən iri nəqliyyat-logistika mərkəzlərindən hesab olunur. |
| **6.** | “AGT Cargo” MMC | - Ölkə ərazisində və beynəlxalq marşrutlarda yük daşıma xidmətləri təklif edir.<br>- İdxal-ixrac və tranzit istiqamətlərində taxıl daşınmasında ixtisaslaşıb. |
| **7.** | ARNO-TRANS | - Yerli və beynəlxalq statuslu nəqliyyat-logistika xidmətləri reallaşdırır. |
| **8.** | ABŞERON LOGİSTİKA MƏRKƏZİ | - Bu nəqliyyat-logistika şirkətində əsasən tranzit multimodal əməliyyatlar həyata keçirilir.<br>- Beynəlxalq yükdaşıma, terminal, broker və anbar xidmətləri göstərilir. |

***Qeyd:*** *Əlavə olunan saytlar əsasında müəllif tərəfindən hazırlanıb (Total Expres https://totalex.az/services/neqliyyat-logistikasi; Fresh logıstıcs. https://freshlogistics.az/az/xidmetler/ltl-yuk-dasimalari; ”AZ Logistika and Management Services”. https://az.azlogistika.com/about; Albayrak Group. https://translogistica.az/az/exhibitors-list/year/2024; Qaya Nəqliyyat. https://qayaneqliyyat.az/; “AGT Cargo” MMC. https://agt-cargo.com/; ASSTRA. https://www.asstra.com/az/; «Arno-Trans» MMC. https://arnotrans.com/; Abşeron Logistika Mərkəzi. https://absheronport.az/az; Alliance Logistics. https://alliance.net/az/rail-transport/).*

Dissertasiya işinin **“Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin modernləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi perspektivləri”** adlı üçüncü fəslində Azərbaycanda nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi prioritetləri araşdırılmış və işğaldan azad olunmuş ərazilərdə nəqliyyat-logistika infrastrukturunun yaradılması perspektivləri verilmişdir. Bundan əlavə, Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizinin regional və beynəlxalq əhəmiyyəti əsalandırılmış və müasir dövrdə ölkəmizdə nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması yolları müəyyənləşdirilmişdir.

Hesab edirik ki, müəssisələrin, logistik mərkəzlərin, vergi, gömrük münasibətlərini tənzimləyən qarşılıqlı həvəsləndirmə və nəzarəti özündə cəmləşdirən mexanizmi təkmilləşdirmək lazımdır. Qeyd olunan amillər nəzərə alınmaqla, nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizminin inkişafının əsas istiqamətlərinə bunları daxil etmişik (sxem 3).

İşğaldan Azad Edilmiş Ərazilərdə (İAEƏ) nəqliyyat-logistika infrastrukturunun yaradılması və inkişaf etdirilməsinin strateji və prioritet istiqamətləri Böyük Qayıdışa dair I Dövlət Proqramının hədəflərinə uyğun müəyyənləşdirilmiş və onların vacibliyi əsaslandırılmışdır: 1. Yolların bərpası və yeni nəqliyyat dəhlizlərinin qurulması. 2. Dəmir yolu şəbəkəsinin qurulması. 3. Yerli və beynəlxalq hava limanlarının tikintisi və istifadəsinin genişləndirilməsi. 4. Logistika mərkəzləri və anbarların qurulması. 5. Nəqliyyat-logistika infrastrukturunun inkişafında innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi. 6. Ətraf mühitin qorunması və inkişafın davamlı olmasının təmin edilməsi. Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizi beynəlxalq səviyyədə nəqliyyat-logistika və kommunikasiyaların açılması baxımından böyük önəm daşıyır. “*Müasir dövrdə sürətlə inkişaf edən qlobal iqtisadi və texnoloji çağırışlar fonunda, Zəngəzur qlobal nəqliyyat-logistika dəhlizinin əhəmiyyəti xüsusilə vurğulanır*”[16].

---

[16]Əliyev Ş.T. Zəngəzur qlobal nəqliyyat dəhlizinin Türk dövlətlərinin iqtisadi inteqrasiyasında strateji funksiyaları.
Ümummilli Lider H.Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və müasir türk dünyası” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı, – 02 may 2023, – s. 35.

Azərbaycan artıq beynəlxalq nəqliyyat-logistika sisteminin önəmli marşrutlarından hesab olunur və qlobal strateji əhəmiyyət kəsb edir.




**Sxem 3. Mövcud fəaliyyət rejimində nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri.**
*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Nəqliyyat-logistika fəaliyyəti üzrə səmərəliliyin qiymətləndirilməsinin ümumi alqoritmini isə sxem 4-dəki kimi göstərə bilərik.

I. Qiymətləndirmə obyektlərinin seçilməsi - logistik alt sistemlər

↓

II. Təxmini göstərici qruplarının formalaşdırılması

↓

III. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin kəmiyyət göstəricilərinin hesablanması

↓

IV. Nəqliyyat-logistik fəaliyyətin keyfiyyət göstəricilərinin ekspert vasitələri ilə müəyyən edilməsi

↓

V. Nəqliyyat-logistika fəaliyyətinin ayrı-ayrı alt sistemlərinin səviyyəsinin qiymətləndirilməsi üçün inteqral göstəricinin müəyyən edilməsi.

↓

VI. Nəqliyyat-logistika sisteminin xüsusiyyətləri nəzərə alınmaqla, hesablanmış göstəricilərin bal meyarlarının müəyyənləşdirilməsi

↓

VII. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin onun müxtəlif komponentlərinin qiymətləndirilməsi üçün göstəricilər əsasında qiymətləndirilməsi

↓

VIII. Qiymətləndirmənin nəticələrinə əsaslanan təklif və tövsiyələrin əsaslandırılması

**Sxem 4. Ölkədə nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi alqoritmi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Müasir dövrdə nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin yüksəldilməsindən ötrü daha üstün və cəlbedici fəaliyyət mexanizmləri və praktiki alətləri tələb olunur. Bunun üçün sistemli tədbirlər görülməli və əvvəldə qeyd etdiyimiz kimi, öncül təcrübələrdən bəhrələnməklə, ölkəmizin nəqliyyat-logistika sistemi üçün adekvat yanaşmalar ortaya qoyulmalıdır.

Yeni şəraitdə Azərbaycanda nəqliyyat-logistika sisteminin səmərəliliyinin artırılması üzrə Fəaliyyət Strategiyasının blok-sxemini təklif edirik (sxem 5).

**I. Nəqliyyat-logistika fəaliyyətində informasiya texnologiyalarının tətbiqi və istifadəsi**

- ✓ Rəqəmsal informasiya sistemlərinin inkişafının stimullaşdırılması.
- ✓ Yüklərin hərəkətinin qlobal monitorinqini təmin edən internet əsasında nəqliyyatda informasiya inteqrasiyasının saxlanılması və inkişaf etdirilməsi.
- ✓ Nəqliyyat-logistika şirkətlərində daxili və xarici sənəd dövriyyəsinin təkmilləşdirilməsi.
- ✓ Müştərilər və nəqliyyat xidməti təminatçıları arasında maksimum koordinasiyanın təmin edilməsi.

**II. Nəqliyyat-logistika infrastrukturunun rəqəmsallaşdırılması mexanizmində əsas elementlər:**

- ✓ texnoloji innovasiyalar əsasında nəqliyyat-logistika proseslərinin əvvəllər mövcud olan avtomatlaşdırılmasının modernləşdirilməsi;
- ✓ normativ hüquqi bazaya yenidən baxılması və yenilənməsi, vahid standartların işlənib hazırlanması və yaradılması;
- ✓ texnoloji innovasiyaların tətbiqi ilə nəqliyyat-logistika infrastrukturunun inkişafı.
- ✓ nəqliyyat-logistika sənayesinin rəqəmsallaşdırılması.

**III. Uğurlu fəaliyyət göstərən logistika strategiyasını formalaşdırmaq üçün nəqliyyat-logistika fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi sistemi aşağıdakı mürəkkəb şərtlərə əsaslanmalıdır:**

- ✓ bütün nəqliyyat-logistik fəaliyyət göstəricilərinin hərtərəfli uçotu;
- ✓ yalnız etibarlı ictimai məlumatlardan və ümumi qəbul edilmiş hesablama metodlarından istifadə edilməsi;
- ✓ səmərəliliyin təhlilinin nəticələrinin tətbiqi əsasında nəqliyyat-logistika sisteminin tənzimlənməsi və inkişafı;
- ✓ fəaliyyətin qiymətləndirilməsinin nəticələrinin sadəliyi və aydınlığı;
- ✓ alınan qiymətləndirmə nəticələrinin birmənalılığı.
- ✓ logistik əməliyyatların monitorinq.

**IV. Nəticə olaraq nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətlərini müəyyənləşdirmək olar:**

- ✓ nəqliyyat-logistika sistemlərinin optimallaşdırılması üçün qəbul edilən qərarların keyfiyyət və effektivlik səviyyəsini və bunun üçün meyarların müəyyənləşdirilməsi;
- ✓ nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik göstəricilərinin qiymətləndirilməsi;
- ✓ nəqliyyat-logistika sisteminin sistemin missiyasını və uzunmüddətli strategiyasını ümumi məqsədə çevirən balanslaşdırılmış göstəricilər kartının istifadəsi;
- ✓ nəqliyyat-logistika sisteminin bütün maraqlı tərəflərin iştirakı ilə korporativ əsasda birliklərin formalaşdırılması;
- ✓ kommersiya bankları, bank olmayan kredit təşkilatlarının və s. daxil olmaqla özəl investorlardan maliyyə cəlb etməklə nəqliyyat-logistika infrastrukturunun inkişafının stimullaşdırılması;
- ✓ nəqliyyat-logistika fəaliyyətinin idarə etmə sisteminin təkmilləşdirilməsi və s.

**Sxem 5. Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması üzrə Fəaliyyət Strategiyasının blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanıb.*

Yeni çağırışlar kontekstində və beynəlxalq nəqliyyat-logistika sistemində baş verən transformasiyalar baxımından Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin daha səmərəli təşkil edilməsi ilə əlaqədar bir qrup yekun fikirləri bildiririk:

– Ölkədə nəqliyyat-logistika fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində təşkil olunması və bununla bağlı mövcud fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi təmin olunmalıdır.

– Nəqliyyat-logistika xidmətlərinin təşkili və yerinə yetirilməsi proseslərinə nəzarət mexanizmlərinin gücləndirilməsi bir zərurət kimi diqqət çəkir.

– Ölkə üzrə nəqliyyat-logistika fəaliyyətinin maksimum prioritet trendlər və inkişaf postulatları istiqamətində genişləndirilməsi və bu proseslərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri görülməlidir.

– Müasir rəqabət mühiti şəraitində nəqliyyat-logistika müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi tədbirlərinin genişləndirilməsinə ehtiyac qalmaqdadır.

– İqtisadiyyatın müxtəlif sahələrində istehsal ehtiyacları üçün xərcləri optimallaşdırmaq, nəqliyyat şirkətlərinin iqtisadi səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq üçün informasiya texnologiyalarından istifadənin genişləndirilməsi və əşyaların interneti üzərindən analoji xidmətlərin göstərilməsi, nəqliyyat-logistika proseslərinin izlənilməsi mexanizmlərinin tətbiqinə zərurət yaranmışdır.

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik nəticələr, əldə edilmiş tövsiyə və təkliflər verilmişdir.**

1. İlk növbədə qeyd etmək istərdik ki, qlobal çağırışlar kontekstində nəqliyyat-logistika fəaliyyətinin strateji əhəmiyyəti kifayət qədər artmışdır və dünya iqtisadiyyatının daha səmərəli olması məqsədilə optimal nəqliyyat-logistika marşrutlarına ehtiyac vardır. Bu baxımdan nəqliyyat-logistika fəaliyyətinin konseptual əsaslarına yeni baxışlar və dövlət siyasətinin əsas hədəfləri ortaya qoyulmalıdır.
2. Nəqliyyat-logistika fəaliyyətinin mövcud problemlərinin həll edilməsi istiqamətində beynəlxalq səviyyədə, dövlətlər və ölkə qrupları, müxtəlif beynəlxalq təşkilatların sammitlərində və illik

konfranslarında müzakirələr aparılmasına, qərarlar qəbul edilməsinə baxmayaraq, qlobal çaxnaşmalar, iqtisadi sanksiyalar və digər səbəblərdən yeni nəqliyyat-logistika marşrutları tələb olunur və yaxud fəaliyyətdə olan marşrutların optimallaşdırılması aktuallıq təşkil edir.

3. Nəqliyyat-logistika fəaliyyətinin rolunun səmərəli formalaşması dövlətin iqtisadi, siyasi və sosial sahələrində uğurlu inkişafa aparır. Əksinə, nəqliyyat-logistika sisteminin əhəmiyyətinin lazımi səviyyədə qiymətləndirilməməsi istər-istəməz bütövlükdə dövlətin inkişafının ləngiməsinə gətirib çıxarır. Nəqliyyat-logistika fəaliyyəti fasiləsiz prosesdir və onun daimi inkişafa, təkmilləşdirilməsinə ehtiyacı vardır. Daimi inkişaf hədəfləri və nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi üzrə qlobal çağırışlara və yeni obyektiv reallıqlara uyğun şəkildə mexanizmlərin və tədbirlərin hazırlanması, fəaliyyət proseslərində metodoloji üslubların maksimum təkmilləşdirilməsi və ya yenilənməsi olduqca vacibdir.

4. Hesab edirik ki, nəqliyyat-logistika sahəsində daha səmərəli yanaşmaların tətbiqi və inkişaf etdirilməsi sayəsində milli və qlobal miqyasda iqtisadi artımın təmin edilməsi mümkündür. Bu fəaliyyət sahəsinin inkişafı təkcə iqtisadi üstünlüklərlə deyil, habelə sosial rifahın və ətraf mühitin qorunmasının təmin olunması ilə əlaqəlidir. Azərbaycan üçün də bu istiqamətdə atılacaq addımlar ölkənin beynəlxalq ticarət kanallarında önəmli yer tutmasına zəmin yaradar. Bu baxımdan, nəqliyyat-logistika fəaliyyətlərindəki problemlərin həlli üçün müasir metodologiyaların tətbiqi səmərəliliyi artırmaq və rəqabət üstünlüyü əldə etmək üçün vacibdir.

5. Bu nəticəyə gəlirik ki, işğaldan azad olunmuş ərazilərdə nəqliyyat-logistika infrastrukturunun yaradılması və inkişafı Azərbaycanın ümumi iqtisadiyyatına mühüm töhfə verəcəkdir. Həmin ərazilərin bərpası, regionda yeni iş yerlərinin yaradılması və ölkənin beynəlxalq ticarət əlaqələrinin genişlənməsi üçün ciddi imkanlar yaranacaqdır. Nəqliyyat-logistika infrastrukturunun mükəmməl şəkildə qurulması, həmçinin ölkənin regional və beynəlxalq iqtisadi əlaqələrini möhkəmləndirəcək, Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyasını sürətləndirəcəkdir.

6. Zəngəzur beynəlxalq nəqliyyat-logistika dəhlizi Cənubi Qafqazda regional inteqrasiya, nəqliyyat təhlükəsizliyi və iqtisadi

inkişaf üçün mühüm bir layihədir. Bu dəhliz təkcə Azərbaycanın deyil, bütün regionun iqtisadi xəritəsini dəyişə bilər. Siyasi iradə, diplomatik səy və beynəlxalq əməkdaşlıq şəraitində bu layihə XXI əsrin ən uğurlu tranzit marşrutlarından birinə çevriləcəkdir.

7. Ölkənin müxtəlif regionlarında, xüsusilə sərhəd keçid məntəqələrinin yaxınlığında beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərinin yaradılması, "Nəqliyyat-logistika və gömrük sərhədyanı iqtisadi zonaları"nın təşkili ümumilikdə nəqliyyat-logistika fəaliyyətinin genişləndirilməsinə və bu fəaliyyət sahəsinin cəlbediciliyinin artırılmasına imkan verərdi;

8. Rəqəmsal mexanizmlərin iqtisadiyyatın müxtəlif sahələrində sürətlə geniş tətbiq edildiyi bir şəraitdə və süni intellekt alətlərinin daha intensiv istifadə olunduğu bir dövrdə ölkəmizdə də bu strateji istiqamətlər üzrə praktiki fəaliyyətin genişləndirilməsinə, qeyd olunan mexanizmlər əsaslı nəqliyyat-logistika fəaliyyətinin gücləndirilməsi, bu sahədə ixtisaslaşan müəssisələrin və mərkəzlərin rəqabət qabiliyyətinin artırılması tədbirlərinə ehtiyac vardır;

9. Azərbaycanın regional və beynəlxalq nəqliyyat layihələrinin, həmçinin ölkəmizin fəal iştirak etdiyi digər analoji layihələrin imkanlarından səmərəli və məhsuldar istifadə edilməsini təmin etmək məqsədilə, "2026-2030-cu illərdə Azərbaycan Respublikasında nəqliyyat-logistika sisteminin qlobal çağırışlara uyğun gücləndirilməsi üzrə Fəaliyyət Strategiyası"nın hazırlanması və təsdiq edilməsini təklif edirik və bunun üçün onun mühüm tərkib elementlərini tədqiqatımızda göstərmişik.

**Disertasiya işinin mövzusu üzrə aşağıdakı elmi məqalələr və tezislər dərc edilmişdir:**


1. Nəqliyyat-logistika fəaliyyətindəki problemlərin həlli üzrə nəzəri-metodoloji yanaşmalar. // – Bakı: "Qərbi Kaspi" xəbərləri jurnalı, 2023, № 04. – s. 200-207.

2. Nəqliyyat-logistikanın inkişaf etdirilməsi üzrə beynəlxalq təcrübə. // – Bakı: "Geostrategiya" jurnalı, 2024, № 05. – s. 142-146.

3. Azərbaycanda nəqliyyat-logistika sisteminin potensialından səmərəli istifadə edilməsi məsələləri. // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnalı, 2024, № 03. – s. 161-167.

4. Актуальные проблемы транспортно-логистической деятельности // Proceedings of the 8th International Scientific and Practical Conference Scıentıfic Communıty: Interdıscıplınary Research – Hamburg, Germany, 6-8 сентября 2024. – стр. 33-40.

5. Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi istiqamətləri. // – Bakı: “Qərbi Kaspi” xəbərləri jurnalı, 2025, № 01. – s. 263-269.

6. Оценка уровня эффективности транспортно-логистической деятельности. // – Москва: Журнал “Monetary economics and management”, 2025, №07. – стр. 28-35.

7. Nəqliyyat-logistikanın təşkilati-iqtisadi mexanizmlərinin tənzimlənməsi və təkmilləşdirilməsi. // – Bakı: “Kooperasiya” elmi-praktiki jurnalı, 2025, № 02. – s. 214-221.

8. Nəqliyyat-logistika sisteminin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi problemləri. // Sumqayıt Dövlət Universiteti, Malatya Turqut Özal Universiteti və Oş Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Sumqayıt Dövlət Universitetində keçiriləcək “Türkdilli dövlətlərin iqtisadi resurslarından səmərəli istifadənin aktual problemləri” mövzusunda I Beynəlxalq elmi konfransın materialları. 22-23 may 2025, – Sumqayıt, – s. 72-75.

9. Укрепление транспортной и логистической деятельности в постконфликтных территории в Азербайджане. // XX Международной научно-практической конференции “Устойчивое развитие общества: Новые научные подходы и исследования”, – Москва, 08 июля 2025, – стр. 170-182.

10. Problems and solutions of the development of the transport-logıstics system in the modern period // II International Scientific and Practical Conference “Exploring the unknown: science, imagination, discovery” – Lisbon. Portugal, July 08-09, 2025. – pp. 28-34.

11. Postkonflikt ərazilərdə sənaye müəssisələrinin dayanıqlı inkişafında nəqliyyat-logistika infrastrukturunun rolu. // Azərbaycan Kooperasiya Universitetinin 60 – illiyinə həsr olunmuş “Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər” adlı Beynəlxalq Konfransın materialları. – Bakı, 06 dekabr 2025-ci il, – s. 229-232



Dissertasiyanın müdafiəsi 14 oktyabr 2026-cı il tarixdə, saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 sentyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.09.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45850 işarə

Tiraj: 100